# "Ulduz"un may sayı çap olundu



"Ulduz" jurnalının may sayı işıq üzü görüb. Dərgi ədəbiyyatşünas, esseist Mətanət Vahidin özüylə söhbəti və "Şəhrizad" - milli-tarixi yaddaş romanı sənət və qadın idealının təcəssümü kimi" essesi ilə açılır. "Şeir vaxtı"nda Ramilə Qardaşxanqızının, Elsevər Məsimin, Əfşan Yusifqızının, Reyhan Kənanın, Aytac Sahədin və Xanım Sevərin şeirləri, "Nəsr" rubrikasında isə Çinarə Ömrayın "Adsız", Hafiz Təmirovun "Dərdin böyütdüyü uşaq" hekayələri yer alıb. Şair-publisist Qulu Ağsəsin "Nüvə başlığı və ya Faites-En Bon Usage" essesini dünyada və ölkədə baş verən hadisələrə fərqli baxış kimi də səciyyələndirmək olar. Emin Pirinin "Laçın vaxtlarımız" sərlövhəli silsilə yazıları müəllifin müharibə gündəliyindən nümunələrdir. Fərid Hüseynin "Təbiət aynası" essesi Məhəmməd Füzulinin oğluna ünvanladığı "Fəzliyə nəsihət" qəsidəsindən bəhs edir. Professor Məti Osmanoğlunun "Ustad dərsləri"nin cari mövzusu filosof Fridrix Şegelin "Mifologiya haqqında nitq"idir. Tatar ədəbiyyatının istedadlı nümayəndələrindən sayılan Gözəl Yaxinanın "Soyağacı" hekayəsi Seyfəddin Hüseynlinin tərcüməsində təqdim edilir. Aygün Əzizin "Dilimizin anasını ağlatmışıq" başlıqlı yazısında dilimizə fərqli dillərdən keçmiş sözlərin geniş təhlili aparılır. Şəfa Vəlinin "Uzaqdakı yaxınlar: Nüşabə Əsəd Məmmədli" yazısı, adından da göründüyü kimi, yazıçı, dramaturq Nüşabə Əsəd Məmmədlinin həyat və yaradıcılığının maraqlı məqamlarına işıq tutur. "Qısa fikirlər xəzinəsi"ni Erix Mariya Remark, Luis Kerroll, Tomas Eliot və başqalarının fikirləri bəzəməkdədir. Mobil Aslanlı Huntürkün "A.Bakıxanovun poetik düşüncəsində sağlam həyat tərzi" araşdırma yazısı böyük ədibin əsərlərində sağlamlıqla bağlı tərbiyəvi məqamları diqqətə çatdırır. "Dərgidə kitab" rubrikasında filologiya üzrə fəlsəfə doktoru Kəmalə Umudovanın "Adı soyadını eşidən şair: Qulu Ağsəs" yazısı yer alıb. Yazı şair Qulu Ağsəsin zəngin yaradıcılığının əsas istiqamət və məqamlarını özündə ehtiva edir. "Dərgidə sərgi" rubrikasında 8 yaşlı rəssam Ağazadə Əbəlfəzlin rəsm əsərlərinə yer verilib.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 3 iyun.- S. 29.